*Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “ 4 ” noyabr 2023-cü il tarixli 19 №-li Qərarı ilə təsdiq edilmişdir.*

# Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarının indeksləşdirilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyət kəsb edən məhkəmə aktlarının indeksləşdirilməsinin xüsusiyyətlərini, tətbiqi mexanimzlərini və qaydalarını müəyyən edir.

**1.2.** Bu Qaydaların tətbiqində əsas məqsəd Azərbaycan Respublikasında vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından əhəmiyyətli olan məhkəmə aktlarının müəyyənləşdirilməsi və onlara əlçatanlığın təmin edilməsidir.

**1.3.** Məhkəmə aktlarının indeksləşdirilməsi bütün məhkəmə instansiyalarında həyata keçirilən fəaliyyətdir.

**1.4.** Bu Qaydalara uyğun olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə kollegiyaları tərəfindən baxılan işlərdə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən, inkişaf etdirən və dəyişən məhkəmə aktları indeksləşdirilir.

**1.5.** Bu Qaydalara uyğun olaraq birinci və apellyasiya instansiyası məhkəmələrinin baxdıqları işlər üzrə məhkəmə təcrübəsinin müəyyən edilməsi, inkişaf etdirilməsi və ya dəyişdirilməsi baxımından əhəmiyyətli hesab etdikləri hüquqi məsələlərin həll edildiyi məhkəmə aktları indeksləşdirilir. Bu məhkəmələr tərəfindən məhkəmə aktlarının indeksləşdirilməsinin məqsədi həmin hüquqi məsələlər üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə, inkişaf etdirilməsinə və ya dəyişdirilməsinə olan ehtiyacın Azərbaycan Respublikası Ali Məhkəməsinin diqqətinə çatdırılmasıdır.

## 2. Məhkəmə aktlarına tətbiq edilən indekslər

**2.1.** Bu Qaydalara uyğun olaraq indeksləşmə məhkəmə aktlarına aşağıdakı “ulduz” nişanlarının təyin edilməsi yolu ilə həyata keçirilir:

**2.1.1. ★ (bir ulduz)** – məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan hüquqi məsələnin həll edildiyi birinci instansiya məhkəməsinin aktına təyin edilən fərqləndirici nişandır;

**2.1.2. ★★ (iki ulduz)** – məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan hüquqi məsələnin həll edildiyi apellyasiya instansiyası məhkəməsinin aktına təyin edilən fərqləndirici nişandır;

**2.1.3. ★★★ (üç ulduz)** – Azərbaycan Respublikası Ali Məhkəməsinin hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən və inkişaf etdirən məhkəmə aktına təyin edilən fərqləndirici nişandır;

**2.1.4. ★ - 4 (bir ulduz tire dörd)** – Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun, məhkəmə kollegiyalarının, habelə məhkəmə tərkiblərinin aktlarındakı hüququn tətbiqi üzrə təcrübənin vahidliyini təmin edən hüquqi mövqelərdən fərqli yanaşmanın qanunla müəyyən edilmiş qaydada tətbiq edildiyi birinci instansiya məhkəməsinin aktına təyin edilən fərqləndirici nişandır;

**2.1.5. ★★ - 4 (iki ulduz tire dörd)** – Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun, məhkəmə kollegiyalarının, habelə məhkəmə tərkiblərinin aktlarındakı hüququn tətbiqi üzrə təcrübənin vahidliyini təmin edən hüquqi mövqelərdən fərqli yanaşmanın qanunla müəyyən edilmiş qaydada tətbiq edildiyi apellyasiya instansiyası məhkəməsinin aktına təyin edilən fərqləndirici nişandır;

**2.1.6. ★★★★ (dörd ulduz) –** Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun, məhkəmə kollegiyalarının, habelə məhkəmə tərkiblərinin aktlarındakı hüququn tətbiqi üzrə təcrübənin vahidliyini təmin edən hüquqi mövqelərdən fərqli yanaşmanın qanunla müəyyən edilmiş qaydada tətbiq edildiyi Ali Məhkəmənin aktına təyin edilən fərqləndirici nişandır.

## 3. Məhkəmə aktlarının indeksləşdirilməsi mexanizmləri

**3.1.** Birinci instansiya məhkəməsi baxdığı iş üzrə məhkəmə təcrübəsinin müəyyən edilməsi və ya inkişaf etdirilməsi baxımından əhəmiyyətli hesab etdiyi hüquqi məsələni həll etdiyi məhkəmə aktına ★ nişanını təyin edir.

**3.2.** Apellyasiya instansiyası məhkəməsi baxdığı iş üzrə birinci instansiya məhkəməsinin həll etdiyi hüquqi məsələnin məhkəmə təcrübəsinin müəyyən edilməsi və ya inkişaf etdirilməsi baxımından əhəmiyyətliliyi ilə razılaşdıqda və ya özünün bununla bağlı mövqeyi olduqda, qəbul etdiyi məhkəmə aktına ★★ nişanını təyin edir.

**3.3.** Azərbaycan Respublikasının Ali Məhkəməsi baxdığı iş üzrə həll edilən hüquqi məsələnin məhkəmə təcrübəsinin müəyyən edilməsi və ya inkişaf etdirilməsi baxımından əhəmiyyətliliyi ilə bağlı birinci və / və ya apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşdıqda və ya özünün bununla bağlı mövqeyi olduqda, qəbul etdiyi məhkəmə aktına ★★★ nişanını təyin edir.

**3.4.** Birinci instansiya məhkəməsi baxdığı iş üzrə hüquqi məsələnin həllində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun, məhkəmə kollegiyalarının, habelə məhkəmə tərkiblərinin aktlarındakı hüququn tətbiqi üzrə təcrübənin vahidliyini təmin edən hüquqi mövqelərdən qanunla müəyyən edilmiş qaydada fərqli yanaşma tətbiq edərsə, qəbul etdiyi məhkəmə aktına ★ **- 4** nişanını təyin edir.

**3.5.** Apellyasiya instansiyası məhkəməsi baxdığı iş üzrə hüquqi məsələnin həllində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun, məhkəmə kollegiyalarının, habelə məhkəmə tərkiblərinin aktlarındakı hüququn tətbiqi üzrə təcrübənin vahidliyini təmin edən hüquqi mövqelərdən fərqlənən birinci instansiya məhkəməsinin mövqeyi ilə razılaşdıqda və ya özünün bununla bağlı mövqeyi olduqda, qanunla müəyyən edilmiş qaydada qəbul etdiyi məhkəmə aktına ★★ **- 4** nişanını təyin edir.

**3.6.** Azərbaycan Respublikasının Ali Məhkəməsi baxdığı iş üzrə hüquqi məsələnin həllində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun, məhkəmə kollegiyalarının, habelə məhkəmə tərkiblərinin aktlarındakı hüququn tətbiqi üzrə təcrübənin vahidliyini təmin edən hüquqi mövqelərdən fərqlənən birinci və / və ya apellyasiya instansiyası məhkəməsinin mövqeyi ilə razılaşdıqda və ya özünün bununla bağlı mövqeyi olduqda, qanunla müəyyən edilmiş qaydada qəbul etdiyi məhkəmə aktına ★★★★ nişanını təyin edir. ★★★★ nişanının təyin edilməsi həmin hüquqi məsələ üzrə əvvəlki hüquqi mövqeyi əks etdirən məhkəmə aktının ★★★ nişanının qüvvədən düşməsi ilə nəticələnir və bununla bağlı "Elektron məhkəmə" informasiya sistemində avtomatlaşdırılmış qaydada müvafiq qeydiyyat aparılır.

**3.7.** Məhkəmə aktlarının nişanlanması işə baxan hakim və ya məhkəmə tərkibi tərəfindən həyata keçirilir.

**3.8.** İndeksləşmə məhkəmə aktlarının "Elektron məhkəmə" informasiya sisteminə yerləşdirilməsi zamanı icra edilir. Hər bir indeksləşmiş məhkəmə aktına münasibətdə həll edilmiş hüquqi məsələyə dair "Elektron məhkəmə" informasiya sistemində qısa izahedici qeyd əlavə edilir.

**3.9.** Bu Qaydalara uyğun olaraq yalnız Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən təyin edilən nişanlar məhkəmə aktının titul vərəqində əks etdirilir.

**3.10.** Birinci və apellyasiya instansiyaları məhkəmələri tərəfindən təyin edilən nişanlara əlçatanlıq yalnız “Elektron məhkəmə” informasiya sisteminin iştirakçıları üçün təmin edilir.

**3.11.** İşə baxan hakim və ya məhkəmə tərkibi həll edilən hüquqi məsələnin məhkəmə təcrübəsi baxımından əhəmiyyətliliyinə dair aşağı instansiya məhkəməsinin mövqeyi ilə razılaşmadıqda, özünün qəbul etdiyi məhkəmə aktını indeksləşdirməkdən imtina edir və aşağı instansiya məhkəməsi tərəfindən təyin edilmiş nişanı ləğv edir. Yuxarı instansiya məhkəməsi tərəfindən aşağı instansiya məhkəməsinin aktı ləğv edildikdə, təyin edilmiş nişan ləğv edilə bilər. Birinci instansiya məhkəməsi tərəfindən təyin edilmiş nişan apellyasiya instansiyası məhkəməsi tərəfindən, birinci və apellyasiya instansiyası məhkəmələri tərəfindən təyin edilmiş nişanlar isə Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən ləğv edilir. Azərbaycan Respublikasının Ali Məhkəməsi qərar qəbul edərkən apellyasiya instansiyası məhkəməsi tərəfindən ləğv edilmiş birinci instansiya məhkəməsinin təyin etdiyi nişanı bərpa edə bilər. Təyin edilmiş nişanlar ləğv olunduğu, qüvvədən düşdüyü və ya bərpa edildiyi hallarda “Elektron məhkəmə” informasiya sistemində avtomatlaşdırılmış qaydada müvafiq statuslar formalaşır.

## 4. Yekun müddəalar

**4.1.** “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə aktlarının indeksləşdirilməsi bu Qaydalara uyğun olaraq həmin sistem vasitəsilə həyata keçirilir.

**4.2.** “Elektron məhkəmə” informasiya sisteminin imkanlarından istifadə edilməklə nişanlar və digər effektiv meyarlar üzrə yaradılan axtarış sistemi vasitəsi ilə indeksləşdirilmiş məhkəmə aktlarının əlçatanlığı təmin edilir.

**4.3.** “Elektron məhkəmə” informasiya sistemində indeksləşdirilmiş məhkəmə aktlarına dair aylıq, rüblük və illik hesabatlar dərc edilir.